## Makroiqtisadi göstəricilərin dinamikası

Cari ilin yanvar-fevral aylarında əhalinin hər nəfərinə düşən gəlirləri 2011-ci ilin eyni dövrü ilə müqayisədə 12% artaraq 497,9 manat və ya orta hesabla ayda 249 manat təşkil etmişdir

Azərbaycan hökuməti tərəfindən bütün sosial və iqtisadi öhdəliklərin tam yerinə yetirilməsi, infrastrukturun təkmilləşdirilməsi, yeni iş yerlərinin yaradılması, işsizliyin və yoxsulluğun minimuma endirilməsi və digər inkişaf meyilləri cari ilin ötən iki ayı ərzində də davam etmişdir. Ölkənin inkişafını xarakterizə edən əsas makroiqtisadi göstərici - ümumi daxili məhsul (ÜDM) istehsalı yüksəlmişdir.

*ÜDM-in həcmi*
*8 milyard manat olmuşdur*

Bu ilin yanvar-fevral aylarında ölkə iqtisadiyyatında 8 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən 0,5% çox ÜDM istehsal edilmişdir. İqtisadiyyatın qeyri-neft sahələrində yaradılmış əlavə dəyərin həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,1% artaraq 3,4 milyard manat və ya ÜDM-in 42,6%-ni təşkil etmişdir.

ÜDM-in 60,5%-i sənayedə, 5%-i tikintidə, 6,9%-i ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində, 5%-i nəqliyyat və anbar təsərrüfatında, 2,5%-i kənd, meşə təsərrüfatı və balıqçılıqda, 1,3%-i turistlərin yerləşdirilməsi və iaşə xidmətləri sahəsində, 1,6%-i informasiya və rabitə xidmətlərində, 11,3% isə sosial və digər xidmət sahələrində istehsal edilmişdir.

*Əhalinin gəlirləri*
*4,5 milyard manata çatmışdır*

İlin ilk iki ayı ərzində əhalinin gəlirləri də əhəmiyyətli dərəcədə artmışdır. Əhalinin hər nəfərinə düşən gəlirləri 2011-ci ilin eyni dövrü ilə müqayisədə 12% artaraq 497,9 manat və ya orta hesabla ayda 249 manat təşkil etmişdir. Adambaşına gəlirlərin artım sürəti istehlak qiymətlərinin bahalaşmasını 8,3% bənd üstələmişdir. Bu dövr ərzində ölkə əhalisi tərəfindən əldə edilmiş 4,5 milyard manatlıq gəlirin 70,6%-i son istehlak xərclərinə, 9,8%-i vergilərə, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə sərf edilmiş, 17,3%-i isə yığıma yönəldilmişdir. Bütün icbari və könüllü haqlar ödənildikdən sonra əhalinin sərəncamında 4,1 milyard manat həcmində və ya əvvəlki ilin müvafiq dövründəkindən 13,4% çox vəsait qalmışdır.

Onu da qeyd edək ki, digər fəaliyyət növləri ilə müqayisədə mədənçıxarma sənayesində, maliyyə və sığorta, informasiya və rabitə, peşə, elm və texniki fəaliyyət sahələrində, o cümlədən tikintidə, inzibati və yardımçı xidmətlərin göstərilməsində orta aylıq əməkhaqqı yüksək olmuşdur.

*İstehlak bazarında qiymətlər sabitdir*

Ötən ay ölkəmizdə ərzaq məhsullarından düyünün, qoyun ətinin, kolbasa məmulatlarının, təzə balığın, pasterizə və sterilizə olunmuş üzlü südün, pendirin, naringinin, bananın, almanın, armudun, heyvanın, narın, şabalıdın, kələmin, qoz və fındığın, göyərtinin qiyməti bahalaşmış, qarabaşaq yarmasının, çörəyin, mal və toyuq ətinin, pasterizə olunmamış üzlü südün, yumurtanın, günəbaxan və zeytun yağlarının, limonun, portağalın, çuğundurun, kökün, sarımsağın, soğanın, kartofun və s. məhsulların qiymətləri ucuzlaşmışdır. Bəzi ərzaq məhsullarının və əhaliyə göstərilən pullu xidmətlərin qiymət və tarifləri isə cəmi 0,1% bahalaşmışdır. Qeyri-ərzaq mallarının qiymətləri sabit qalmışdır.

Fevral ayında satılmış kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri əvvəlki ayla müqayisədə 0,9%, o cümlədən diri heyvanlar və heyvandarlıq məhsullarının istehsalçı qiymətləri 2,2% ucuzlaşmış, birillik bitkilərin istehsalçı qiymətləri 0,5% bahalaşmış, çoxillik bitkilərin istehsalçı qiymətləri dəyişməz qalmışdır.

Əhaliyə göstərilən pullu xidmətlərdən MDB və beynəlxalq reyslər üzrə hava sərnişindaşıma tariflərində bahalaşma müşahidə olunmuşdur.

*Xərclərin 60%-ə qədəri*
*ərzaq məhsullarına sərf olunmuşdur*

Ötən iki ay ərzində pərakəndə ticarət şəbəkəsindən əhaliyə 2,6 milyard manat məbləğində və ya 2011-ci ilin eyni dövrü ilə müqayisədə 9% çox istehlak malları satılmışdır. İstehlak mallarının 337,4 milyon manatı hüquqi şəxslərin, 1,2 milyard manatı hüquqi şəxs yaratmadan ticarət fəaliyyəti göstərən fərdi sahibkarların, 1,1 milyard manatı isə bazar və yarmarkalarda fəaliyyət göstərən fiziki şəxslərin satış şəbəkələrində realizə olunmuşdur. Ölkə əhalisinin pərakəndə ticarət şəbəkələrində xərclədikləri vəsaitin 59,9%-i ərzaq məhsullarının, 40,1%-i qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

Rəşad SADIQOV